# “Kim hər vacib namazdan sonra “Ayətul-Kürsi”ni oxuyarsa, onun cənnətə girməsinə ölümündən başqa heç nə mane olmaz”

Əbu Umamədən (Allah ondan razı olsun) Allahın Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: “Kim hər vacib namazdan sonra “Ayətul-Kürsi”ni oxuyarsa, onun cənnətə girməsinə ölümündən başqa heç nə mane olmaz”.
[Səhih]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər vermişdir ki, hər kim fərz namazı bitdikdən sonra “Ayətul-Kürsi”ni oxuyarsa, onun cənnətə girməsinə ölümdən başqa heç nə mane olmaz. bu ayə, bəqərə surəsində, Uca Allahın bu ayəsidir: Allahdan başqa ilah yoxdur! O, diridir, bütün məxluqatı idarə edir. O, nə mürgüləyər, nə də yuxulayar. Göylərdə və yerdə nə varsa hamısı Onundur. Onun izni olmadan Onun yanında kim şəfaət edə bilər?! Önlərindəkini də (qulların edəcəkləri əməlləri), arxalarındakını da (etdikləri əməlləri) O, bilir. Onlar Allahın elmindən, Onun dilədiyi qədərindən başqa heç nəyi qavraya bilməzlər. Onun kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları mühafizə etmək isə Ona çətin gəlmir. O, ucadır, əzəmətlidir. [Əl-Bəqərə, 255]



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee